

İLTİMAS SƏMİMİ

## BU GÖRÜŞ

Bu görüş könlümə bir sevinc kimi,
Sinəmdə həsrəti söküb dağıtdı.
Sevincli anlarım, xoşbəxt anlarım,
Ümidsiz qəlbimdə ümid oyatdı.

Bu görüş ömrümün səadətidir,
Əritdi gözümdən bu intizarı.
Heç belə ürəyim sevinməmişdi,
Ay kimi nur saçdın yoluma, barı.

Bu görüş çevirdi xatirələrə,
Daha darıxmaram qəm məndən uzaq.
Ömrümün baharı, ömrümün yazı,
Ürəyim səninlə sevinər, ancaq.

Əzizim, bu qədər sevinməmişdim,
Mənə bağışladın bu kainatı.
Bu görüş səadət, bu görüş sevinc,
Bu görüş ömrümə ömür caladı...

*25.05.2020*

## DON VURUR

Darıxma, çəkilər qara buludlar,
Yenə yaz günəşi isidər səni.
Darıxma, həsrətin ömrü bitəcək,
Arzular tər çiçək, ümidlər yeni.

Cahan, arzularla çırpınan ürək,
Qoynunda hər zaman xəyallar qurur.
Cahan, yalqızların nə çoxmuş sənin,
Kimi yay bürküsü, kimi don vurur.

*29.04.2020*

## ARZULAR

Hələ çox darıxarlar
Yollar uzun, küçələr dar,
Qapılar qıfıllı,
Yağış da kəsilmir.
Dostlarından uzaq düşmüş,
Özünü tənha sanan
İçi köz-köz yanan.
Məmləkətin ən soyuq yerində
Bir kimsəsiz bürünüb həsrətinə.
Bir az qəlbinin döyüntüsündən,
Bir az da arxasınca yüyürən
Kölgəsindən hürkür.
Bu da uzun yollar,
Dar küçələrdə qırırlan son ümid.
Daşa çevirən səslər,
Xəzana dönən yuxular,
Külü göylərə sovrulan arzular.

*15.04.2020*

## BİR DƏ İTİRDİKLƏRİM

Qoynuna sığındığım arzular,
Ürəyimə təsəllidir.
Hələ açılmayan səhərlər,
Uğurlu, uğursuz sabahlar.
Buludsuz göy üzü,
Yaz havası.
Səssiz-səmirsiz ötüşən vaxt,
İçimdki sükut.
Bir də itirdiklərim.

*01.05.2020*





## SƏNİ DÜŞÜNDÜRÜRMÜ?

Bir tənhanın
Arxanca ümidsiz baxışları,
Darıxan ürəyi,
Ürəyində son arzusu da
Güzgü-güzgü qırılır.
Yenə səssiz-səmirsiz,
Yüyürsə də çata bilməz.
Heç nəyə ümid yoxmuş.
Üzünü isladan göz yaşları
Ayrılıq qoxuyan
Payız yağışı kimi.
İçində fırtınalar,
Təsəllisi olmayan
Bir tənhanın acı taleyi
Səni düşündürürmü?

*19.04.2020*

## NAKAMLAR BİLƏR

Göz yaşlarından sənə
Daha yaxın,
Daha əziz nə var.
Damla-damla
Ovcuna süzülən
Təsəlli məktubudur.
Üzünə alın yazını
Oxuyan hələ döyməditin qapı,
Adlamadığın yoldur.
Bu sükut
Sən düşündüyün sükut deyil.
Bunu çiyinlərdə yol gedən,
Bir qarış torpağın
Yuxusunu qarışdıran,
Dostları hönkür-hönkür ağladan
Nakamlar bilər.

*02.05.2020*

## UĞURSUZ TALE

Bu da boyuna biçilən
Uğursuz tale.
İçini göynədən,
Gerçəkləşməyən arzular,
Bir az da ümidsizlik.
Yağışın pıçıltısı
Qəlbinə ən böyük təsəllidir.
Bürün gecənin qaranlığına,
Göz yaşların
Payız qoxuyur.
Səni bir kimsə anlamaz
Sən doğmalara
Yad olduğun kimi,
Doğmalar da sənə yaddır.
Bu da boyuna biçilən
Uğursuz tale...

*05.05.2020*

## BİR DƏ GÖZ YAŞLARIMIZ

Güvənmə bir kimsəyə
Saxta təbəssümlər,
Yalan vədlər.
Bir az da xəyal kimidir.
Bizi aldadan,
Yalançıların yalanlarıdır.
Hər şey bitmiş kimi,
İçimizdə intihar qoxuyan arzular,
Qurd-qurd ulayan ağrılar,
Bir də göz yaşlarımız.

*05.05.2020*

## SEVİNCİ OLMAZ

Kölgəsiz xatirəsən,
Ayaq səslərini
Bir kimsə eşitmir.
Geriyə dönməyə dəyməz,
Gəldiyin dar küçələrdə
Tənhaların göz yaşları
İlan-ilan sürünür.
İntahar qoxuyan pıçıltılar,
Ümidsiz əllər,
Yolçusuz yollar.
Bəlkə, bu alın yazı
Qurd -qurd ulayan ağrılardır.
Səni sükut sevmir,
Göz yaşların sənin necə
Talesiz olduğundan danışır.
Nə bir dostun,
Nə bir doğman tapılar.
Taleyin ümidinə yaşayanların
Sevinci olmaz.

*02.05.2020*

## HİCRAN QORXUSU

Hələ payızın küləyinə,
Qışın sazağına
Alışmamışdın.
Bahar ətirli
Tale yolları,
Buludsuz səma,
Dilindən düşməyən
"səadət" kəlməsi,
Xəyalında mən.
Bir də hər gün
görüşdüyümüz,
Dəniz kənarı.
Sükut,
Tənhaların sevmədiyi
Səssiz-səmirsiz
Uzun gecələr.
Ayrılıq xofu,
Hicran qorxusu.

*01.05.2020*

## NƏ DƏ DANIŞMAĞA BİR KİMSƏSİ VAR

Aynada gördüyüm
O kimdirsə
Mənə tanış deyil,
Xatırlaya bilmirəm.
Nə vaxt
Üz-üzə gəlməyimiz
Yadıma düşmür.
Gözündə bir yığın xatirələr,
Üzündə bir ovuc qəm...
Dodağında həsrət kəlməsi.
Nəfəsi
Bir az da aynanı tərlədir.
Darıxır,
Elə bil ovcundan
Alın yazısı düşüb qırılmış
Nə getməyə bir yeri.
Nə də danışmağa bir kimsəsi var.

*27.04.2020*